**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№364/9** **09 aprel 2024-cü il**

**Palatanın internet səhifəsində və sosial şəbəkələrində yerləşdirilmiş materiallara dair arayış barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 11.11-ci "Palatanın internet səhifəsində və sosial şəbəkələrində yerləşdirilmiş materiallara dair rüblük arayışın və tövsiyələrin hazırlanması" bəndinin icrasını təmin etmək məqsədilə Palatanın İctimaiyyətlə əlaqə və informasiya şöbəsi (M.Hüseynova, N.Əlisoy) tərəfindən hazırlanmış arayışı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasının internet səhifəsində və sosial şəbəkələrində yerləşdirilmiş materiallara dair arayış nəzərə alınsın (əlavə olunur).
2. İctimaiyyətlə əlaqə və informasiya şöbəsinə (M.Hüseynov, N.Əlisoy) tapşırılsın ki, iki ay müddətində Palatanın üzvləri arasında Auditorlar Palatasının internet səhifəsinin təkmilləşdirilməsinə dair sorğunun keçirilməsi və nəticələrinin hazırlanaraq Palatanın rəhbərliyinə təqdim olunması təmin edilsin.
3. Auditorlar Palatasının struktur bölmələrinə (Q.Əhmədli, Z.Almazov, M.Hüseynova) tapşırılsın ki, Palatanın internet səhifəsinin monitorinqi mütəmadi olaraq aparılsın və aşkar olunmuş nöqsan və çatışmazlıqların aradan qaldırılması istiqamətində təkliflər hazırlanaraq Palatanın rəhbərliyinə təqdim edilsin.
4. Auditorlar Palatası sədrinin müşaviri F.Qarayevə və Palatanın İnformasiya texnologiyaları üzrə mütəxəssisi Z.Almazova tapşırılsın ki, iki ay müddətində müvafiq struktur bölmələri ilə birlikdə arayışın tövsiyələrində qeyd olunan çatışmazlıqların aradan qaldırılması təmin edilsin.
5. Bu qərarın və arayışın mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**